27 (1384) 10-16 iyul 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “ECO-NUN ZİRVƏ GÖRÜŞÜNÜN QARABAĞDA, XANKƏNDİDƏ TƏŞKİL EDİLMƏSİNİN XÜSUSİ MƏNASI VAR”




“Bu Zirvə görüşünün (ECO-nun 17-ci Zirvə görüşü – red.) Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var”.

Bu sözləri Prezident İlham Əliyev iyulun 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə çıxışı zamanı söyləyib.

Ermənistan işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirildiyini xatırladan dövlətimizin başçısı bildirib: ***“2023-cü ildə Şuşada ECO-nun Nazirlər Şurasının iclasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim”.***

## “AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ HAZIRDA 50 MİNDƏN ÇOX İNSAN YAŞAYIR, ÇALIŞIR VƏ TƏHSİL ALIR”

“Ermənistan torpaqlarımızda bir milyondan çox mina basdırıb. Vətən müharibəsindən bu günə qədər 400-ə yaxın soydaşımız mina partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb”.

Bu barədə Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə çıxışı zamanı bildirib.

İndi Azərbaycanın Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa etdiyini deyən dövlətimizin başçısı diqqətə çatdırıb: ***“Böyük Qayıdış” Proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Azad edilmiş ərazilərdə hazırda 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır”.***

## Birinci Özbəkistan-Azərbaycan Parlamentlərarası Forumda panellər üzrə müzakirələr aparılıb

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti 30 iyun-1 iyul tarixində Birinci Özbəkistan-Azərbaycan Parlamentlərarası Forumda iştirak etmək məqsədilə Özbəkistanın Xivə şəhərində işgüzar səfərdə olub. Spiker Sahibə Qafarova və Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanın iştirakı ilə keçirilən forumun açılış mərasimindən sonra tədbir panel müzakirələri ilə davam edib. Müzakirələrdə Azərbaycan parlament nümayəndə heyətinin üzvləri də iştirak və çıxış ediblər.



“İqtisadi tərəqqiyə parlament dəstəyi: biznes və investisiyalar üçün yeni imkanlar” mövzusunda keçirilən ikinci panel müzakirələrinə isə Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə moderatorluq edib. Bu sessiyada deputatlar Azər Kərimli, Azər Badamov və Tahir Mirkişili çıxış ediblər.

Ziyad Səmədzadə “Azərbaycan-Özbəkistan əməkdaşlığında yeni mərhələ: strateji tərəfdaşlıq və regional inkişaf” adlı məruzəsində dərin tarixi köklərə söykənən Azərbaycan-Özbəkistan əlaqələrindən danışıb, bildirib ki, bu əlaqələr son illər inkişaf edərək Azərbaycan və Özbəkistanın iqtisadi əməkdaşlığında böyük irəliləyişə səbəb olmuşdur. Belə ki, son 5 ildə iki ölkə arasında ticarət dövriyyəsi üç dəfə artıb. Təkcə keçən il bu sahədə artım 20% olub. Hər iki dövlət qarşılıqlı ticarəti 1 milyard ABŞ dollarına çatdırmağı hədəfləyir. Əməkdaşlığın əsas sahələrinə enerji, tekstil, kənd təsərrüfatı və şəhərsalma daxildir.

Ziyad Səmədzadə qeyd edib ki, hazırda Özbəkistanın neft-qaz sənayesinin inkişafı ilə əlaqədar bu sahədə Azərbaycanın iştirakı ilə bağlı işlər aparılır. Xankəndidə Özbəkistan tərəfindən inşa edilmiş tekstil fabriki istismara verilmişdir.

Ziyad Səmədzadə eyni zamanda Özbəkistanda Azərbaycanın “Mətanət A” şirkəti tərəfindən sement zavodunun tikintisini, çoxmərtəbəli evlərin inşasını əhatə edən “Yeni Namanqan” şəhərciyinin yaradılması barədə də danışıb.

Z.Səmədzadə daha sonra türk dövlətlərinin iqtisadi inkişaf səviyyəsini əks etdirən göstəricilərdən danışaraq bildirib ki, türk dövlətləri inkişaf səviyyəsindəki müxtəlifliyi ilə fərqlənir, onların tədricən aradan qaldırılması diqqət mərkəzində olacaq. Artıq 500 mln. dollar kapitalı olan Türk İnvestisiya Fondu yaradılıb, gələcəkdə onun artırılması təmin ediləcəkdir.

O, deyib: ***“Strateji hədəflərdən biri də ondan ibarətdir ki, türk dövlətlərinin inkişaf sürəti dünya üzrə olan müvafiq göstəricilərdən üstün olsun. Belə bir hədəfə nail olmaq türk dövlətlərinin dünya iqtisadiyyatında roluunun artması deməkdir. Həm ÜDM-də, həm də xarici iqtisadi əlaqələrdə genişlənmə və təkmilləşmə istiqamətləri müəyyən edilməlidir. Türk dövlətləri qarşısında duran vacib məsələlərdən biri borclanma siyasətinin təkmilləşdirilməsidir. Bu məsələdə Azərbaycanın siyasəti bir nümunə kimi istifadə edilə bilər. Azərbaycanın xarici borcunun səviyyəsi dünyanın əksər ölkələrindən daha aşağıdır”.***

Forum çərçivəsində Milli Məclisin deputatları özbəkistanlı həmkarları ilə də görüşüblər. Görüşdə xalqlarımızın oxşar tarixi, mədəni və mənəvi dəyərləri bölüşdüyü diqqətə çatdırılıb. Söhbət zamanı ölkəmizdə ailə institutunun qorunması istiqamətində görülən tədbirlər, bu istiqamətdə mövcud olan qanunvericilik bazası haqqında məlumat verilib. O cümlədən, dost, qardaş xalqlarımız arasında əlaqələrin genişləndirilməsi istiqamətində parlament müstəvisində atılan addımlar da təqdir olunub.

## “QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA HAZIRDA GENİŞMİQYASLI BƏRPA-QURUCULUQ İŞLƏRİ APARILIR”

“İşğaldan azad edilmiş bütün Qarabağ və Şərqi Zəngəzurda hazırda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır”.

Bu barədə Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə çıxışı zamanı deyib.

Ermənistanın ərazilərimizin təxminən 20 faizini 30 ilə yaxın işğal altında saxladığını, etnik təmizləmə həyata keçirdiyini, bir milyondan artıq soydaşımızı öz dədə-baba torpağından didərgin saldığını xatırladan dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan xalqı və dövləti işğalla heç vaxt barışmamışdır. ***“Dəfələrlə Ermənistana və onun arxasında duran dövlətlərə bildirirdik ki, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik. Əfsuslar olsun ki, Ermənistan və onun havadarları bizim bu xəbərdarlığımızı ciddi qəbul etməyiblər. Nəticədə peşman olublar”,*** - deyə Prezident əlavə edib.

## “ÖLKƏMİZDƏ ÇOX MÜSBƏT SƏRMAYƏ İQLİMİ VAR”

“Bizim ölkəmizdə çox müsbət sərmayə iqlimi vardır. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarına yaxın sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir”.

Bu fikirləri Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə çıxışı zamanı səsləndirib.

Dövlətimizin başçısı bildirib: ***“Bu gün Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir və müxtəlif qaz boru kəmərləri vasitəsilə 12 ölkəyə təbii qaz ixrac edir. Biz bu göstəriciyə görə dünyada ön sıralardayıq”.***

## TÜRKİYƏ PREZİDENTİ ŞUŞANIN ECO-NUN TURİZM PAYTAXTI SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ AZƏRBAYCANI TƏBRİK EDİB

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşa şəhərinin 2026-cı ildə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) turizm paytaxtı seçilməsi münasibətilə Azərbaycanı təbrik edib.

ECO-nun Xankəndində keçirilən 17-ci Zirvə görüşündə çıxış edən Türkiyənin dövlət başçısı turizm sahəsində əməkdaşlığın vacibliyini vurğulayaraq təşkilatın hazırkı turizm paytaxtının Erzurum şəhəri olduğunu xatırladıb.

***“Turizm sahəsində əməkdaşlıq ECO ölkələrinin üzərinə xüsusi öhdəliklər qoyur”,*** - deyən Rəcəb Tayyib Ərdoğan Erzurumda qəbul olunan qərarların bu sahədə gələcək əməkdaşlıq addımları üçün bələdçi olacağına əminliyini ifadə edib.

O vurğulayıb: ***“Şuşa şəhərinin 2026-cı ildə ECO-nun turizm paytaxtı seçilməsi münasibətilə Prezident İlham Əliyevin simasında bütün Azərbaycan xalqını təbrik edirəm”.***




## “XANKƏNDİ QAFQAZIN YENİ İNKİŞAF MƏRKƏZİNƏ ÇEVRİLƏCƏK”

“Səmimi olaraq əminliyimi bildirirəm ki, qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən mövqeyi sayəsində qədim Xankəndi şəhəri Qafqaz regionunda yeni inkişaf və sülh mərkəzinə çevriləcək”.

Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndidə keçirilən 17-ci Zirvə görüşündə çıxışı zamanı deyib. Türkiyə lideri ECO-nun Zirvə görüşünün Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında keçirilməsindən məmnunluğunu ifadə edib.

Rəcəb Tayyib Ərdoğan deyib: ***“Bu görüşün işğaldan azad edilmiş Xankəndidə təşkil olunması tədbirə xüsusi əhəmiyyət və məna verir”.***





## Azərbaycan və Sloveniya TAP ilə qaz nəqlinin 1,2 milyard kubmetr artırılmasını müzakirə edib



Energetika naziri Pərviz Şahbazov Sloveniyanın ətraf mühit, iqlim və energetika naziri Bojan Kumerin dəvəti ilə bu ölkəyə işgüzar səfər edib. Səfər çərçivəsində Lyublyana şəhərində nazir Bojan Kumer, eləcə də Sloveniyanın aparıcı enerji şirkətləri - "Geoplin", "Petrol Group", "Plinovodi" və HSE ilə görüşlər keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, ətraf mühit, iqlim və energetika naziri Bojan Kumerlə görüşdə gələn il diplomatik münasibətlərin 30 illiyini qeyd edəcək Azərbaycan-Sloveniya ikitərəfli əlaqələrinin inkişafından, qarşılıqlı səfərlərin dinamikasından məmnunluq ifadə edilib. Xüsusilə son illərdə enerji sahəsində əlaqələrin daha intensiv və məhsuldar inkişaf etdiyi vurğulanıb. Bu aspektdə, Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Sloveniya Respublikasının Ətraf Mühit, İqlim və Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu, həmçinin SOCAR və "Geoplin" arasında təbii qazın tədarükünə dair Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyəti qeyd olunub. Sloveniyaya Azərbaycan təbii qazının tədarükünə başlanılması enerji sahəsində əməkdaşlığın real nəticəsi və Avropanın enerji təhlükəsizliyinə, eləcə də təchizatın şaxələndirilməsinə mühüm töhfə kimi qiymətləndirilib. Azərbaycanın etibarlı və güvənilən tərəfdaş olduğunu vurğulayan Bojan Kumer, ölkəmizdən tədarük edilən qazın ötən il Sloveniyanın ümumi qaz istehlakının təxminən 5 faizini təşkil etdiyini və bu həcmlərin artırılması istiqamətində əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirib.

Görüşdə Sloveniyanın enerji siyasətinə dair prioritetləri, Azərbaycanın enerji strategiyası və Avropa İttifaqı ilə strateji tərəfdaşlıq çərçivəsində görülən işlər, qaz tədarükünün artırılması üçün infrastrukturun inkişafı, uzunmüddətli müqavilələrin imzalanması və maliyyələşmə kimi zəruri şərtlərin təmin edilməsi barədə fikir mübadiləsi aparılıb. 2026-cı ildən başlayaraq Trans-Adriatik Boru Kəməri (TAP) ilə qaz tədarükünün 1,2 milyard kubmetr artırılması planı çərçivəsində, habelə uzunmüddətli əsasda Sloveniyaya qaz tədarükü imkanları, hasilat və nəql layihələrinin inkişaf perspektivləri, regional enerji təhlükəsizliyi və qarşılıqlı məsləhətləşmələrin gücləndirilməsi müzakirə olunub.

## "Elektroenergetika haqqında" Qanuna dəyişikliklər edilib: Sabit tarif tətbiq olunacaq

"Elektroenergetika haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi parlamentdə üçüncü oxunuşda təsdiqlənib.

Qanun layihəsi parlamentin iyulun 8-də keçirilən iclasının gündəliyinə daxil edilib.

Dəyişikliklər Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndinə əsasən həyata keçirilib. Yeni dəyişikliklərə əsasən, "sabit tarif" anlayışı qanunvericiliyə daxil edilib. Sabit tarif elektrik enerjisi istehlak səviyyəsindən asılı olmayaraq, hər bir istehlakçı üçün aylıq əsasda tətbiq olunan və tənzimləyici tərəfindən müəyyən edilən sabit xarakterli xərclərin əvəzini ödəməyə yönəlmiş tarif elementi kimi müəyyənləşdirilib.

Dəyişikliklər aşağıdakı əsas məqamları əhatə edir:

Qanuna 1.1.57-1-ci maddə əlavə edilərək "sabit tarif" anlayışı hüquqi çərçivəyə salınıb.



Müvafiq maddələrdə "dəyəri" və "dəyərinin" sözlərindən sonra "və sabit tarif" və ya "və sabit tarifin" ifadələri əlavə olunub. İstehlakçılara yönələn bildirişlərdə sabit tariflə bağlı qalıq borcun və ödəniş tarixinin göstərilməsi zərurəti vurğulanıb. Tənzimləyici orqanın tarif siyasəti çərçivəsində sabit tarifin müəyyənləşdirilməsi və tətbiqi ilə bağlı funksiyaları artırılıb.

Bu dəyişikliklər elektroenergetika sahəsində tarif siyasətinin daha şəffaf və sabit şəkildə tənzimlənməsinə, eləcə də istehlakçılar üçün xərclərin proqnozlaşdırıla bilməsinə şərait yaradacaq. Eyni zamanda, bu addım enerji sektorunda xidmətlərin maliyyə davamlılığının təmin olunmasına yönəlib.

Qeyd edək ki, dəyişikliklər 2023-cü, 2024-cü və 2025-ci illərdə qəbul edilmiş müvafiq qanunvericilik sənədlərində nəzərdə tutulan müddəaların davamı kimi qəbul olunur.

## Azərbaycan və Çin arasında müntəzəm dəmiryol xidmətinin təşkili prioritetdir

"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) nümayəndə heyəti Çində işgüzar səfərdədir.

QSC-dən bildirilib ki, səfər çərçivəsində ADY nümayəndələri Çinin nəqliyyat-logistika şirkətləri ilə görüşlər keçiriblər.

ADY sədri Rövşən Rüstəmov Çinin CRRC ("China Railway Rolling Stock Corporation") korporasiyasının vitse-prezidenti Fanq Fenq və korporasiyanın Çjuçjou lokomotiv istehsalı şirkətinin sədri Van Qiaolinlə keçirilən görüşlərdə Azərbaycanın beynəlxalq nəqliyyat-logistika zəncirində rolunun artması ilə əlaqədar olaraq, yük daşımalarının etibarlı və təhlükəsiz təmin edilməsi üçün lokomotiv parkının yenilənməsi və genişləndirilməsinə, CRRC ilə bu istiqamətdə əməkdaşlığın dərinləşdirilməsinə xüsusi əhəmiyyət verildiyini qeyd edib. Həmçinin Çindən 7 ədəd yeni lokomotivin alınması ilə bağlı cari ilin aprel ayında imzalanmış sazişin təfərrüatları, ADY mütəxəssisləri üçün təlim kursları və texniki treninqlərin təşkili, texniki həllər, istehsalat imkanları, təcrübə mübadiləsi kimi məsələlər müzakirə olunub.

Səfər çərçivəsində Lyanyunqan Limanının rəhbəri Van Qoi Çao ilə görüşdə ADY-nin bu limanla əməkdaşlığının Şərq və Qərb arasında, xüsusilə Orta Dəhliz çərçivəsində nəqliyyat bağlantısının inkişafı baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Hazırda Çin və Azərbaycan arasında yükdaşımaların artan dinamikasının müşahidə olunduğu bildirilib. 2024-cü ildə Çindən 287 blok-qatar qəbul edilib, bu ilin 6 ayı ərzində bu göstərici artıq 199 blok-qatar təşkil edib. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir. Bu mənada, Lyanyunqan–Bakı marşrutu üzrə müntəzəm dəmiryol xidmətinin təşkilinin prioritet istiqamətlərdən biri olduğuna diqqət çəkilib.

"China Railway Container Transport Corp. Ltd." (CRCT) şirkətinin prezidenti Yan Binlə görüşdə isə ADY sədri Rövşən Rüstəmov CRCT-nin Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmiryol qurumları arasında Orta Dəhlizin inkişafı üzrə yaradılmış "Middle Corridor Multimodal Ltd." birgə müəssisəsinə qoşulmasının əhəmiyyətini qeyd edib.

## Ötən il SOCAR-ın ümumi aktivlərinin həcmi 94,7 milyard manata çatıb

Ötən il qlobal neft və qaz bazarları geosiyasi gərginliklər, dəyişən tələblər, ənənəvi və bərpaolunan enerji sektorlarına əhəmiyyətli investisiyaların təsiri ilə nəzərəçarpacaq dalğalanmalarla müşahidə olunub. SOCAR aparılan struktur islahatları, bazar mövqeyini gücləndirəcək satınalmalar və investisiyalar, eləcə də xərclərin optimallaşdırılması sayəsində 2024-cü ili müsbət nəticələrlə başa vurub.

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, ötən il ərzində bir sıra uğurlu biznes satınalma əməliyyatlarını icra edən SOCAR "Cənub Qaz Dəhlizi" QSC-də və STAR Neft Emalı Zavodunda mərhələli satınalınma, "Umm Lulu", SARB, "Bin Nasher" və "Al Bateel" konsessiyasında pay alışı, "Azər-Türk Bank" ASC-nin satınalınması, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Saziş və Bakı-Tbilisi-Ceyhan boru kəməri üzrə əlavə payın satınalınması və "Azərkontrakt" ASC-nin SOCAR-a ötürülməsi əməliyyatlarını həyata keçirib.

Uğurlu islahatların və biznes birləşmələrinin nəticəsi olaraq hesabat ilində SOCAR-ın ümumi aktivlərinin həcmi 31,6 faiz genişlənərək 94,7 milyard manata çatıb, şirkətin cəmi kapitalı da əhəmiyyətli şəkildə möhkəmlənərək 39,6 faizlik artımla 48,7 milyard manata yüksəlib.

SOCAR-ın kredit öhdəlikləri 2023-cü il ilə müqayisədə 2 milyard manat azaldılıb, lakin yeni biznes satınalmaları ("Cənub Qaz Dəhlizi" QSC, STAR zavodu) nəticəsində bu müəssisələrin 7,8 milyard manat kredit öhdəliyi SOCAR-ın mövcud kredit öhdəliklərinə əlavə olunub. Həmçinin 2023-cü ildə SOCAR-ın borc öhdəlikləri birgə müəssisələrin borclarının yenidən maliyyələşdirilməsi ilə bağlı olaraq, 2,9 milyard manat artıb. Ümumilikdə düzgün maliyyə siyasəti nəticəsində son 3 il ərzində biznes satınalmalarını çıxmaqla SOCAR-ın kredit öhdəliyi 7,8 milyard manat, birgə müəssisələri nəzərə almaqla isə 10,6 milyard manat azalıb.

## Latviya Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunu artırıb

Bu ilin birinci rübündə Latviyanın Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyalarının həcmi 10,426 milyon ABŞ dolları təşkil edib. Bu barədə Trend Azərbaycan Mərkəzi Bankından məlumat əldə edib.

Məlumata əsasən, 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə sözügedən ölkədən Azərbaycan iqtisadiyyatına investisiyalar 9 milyon ABŞ dolları və ya 7,3 dəfə artıb.

Hesabat ilində Azərbaycana birbaşa xarici investisiyaların ümumi həcmində Latviyadan yatırılan investisiyaların payı 0,7% təşkil edib.

Xatırladaq ki, 2024-cü ilin ilk rübündə Latviyadan Azərbaycana birbaşa xarici investisiyaların həcmi 1,418 milyon ABŞ dollarına bərabər olub.

Qeyd edək ki, 2025-ci ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 1,519 milyard ABŞ dollarından çox olub. Bu isə 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 10,456 milyon ABŞ dolları və ya 0,7% artım deməkdir.

## Parlamentin iclasında "Qaz təchizatı haqqında" qanun layihəsi təsdiqlənib

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikası qanununun layihəsi üçüncü oxunuşda təsdiqlənib. Sənəd layihəsi parlamentin iyulun 8-də keçirilən iclasının gündəliyinə daxil edilib. 8 fəsildən ibarət olan bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndinə uyğun olaraq qazın nəqli, paylanması, saxlanması, satışı, idxalı, istehlakı və qaz qurğularının istismarı ilə bağlı qaz təchizatı subyektləri, istehlakçılar və qaz təchizatı sektorunda fəaliyyət göstərən dövlət orqanları (qurumları) arasında yaranan münasibətləri tənzimləyir və qaz təchizatının hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

## "Banklarda likvidlik risklərinin idarə edilməsi Qaydası"na dəyişikliklər təsdiq edilib

Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən "Banklarda likvidlik riskinin idarə edilməsi Qaydası"na dəyişikliklər edilib.

AMB-dan bildirilib ki, sözügedən dəyişikliklər 2025-ci il avqust ayının 1-dən qüvvəyə minir. Qaydaya edilən dəyişikliklərin əsas məqsədi kəmiyyət və keyfiyyət parametrlərinin yenidən tənzimlənməsi yolu ilə banklarda likvidlik risklərinin daha effektiv idarə olunması və onların likvidlik mövqelərinin daha da möhkəmləndirilməsi ilə yanaşı, bank sektorunun real iqtisadiyyatı maliyyələşdirmək imkanlarının qorunmasından ibarətdir.

Yeni tələblər bankların likvidlik mövqeyinin qiymətləndirilməsi üçün tətbiq edilən likvidliyin örtülmə əmsalının (LCR) həm məcmu, həm də milli valyuta üzrə tətbiqini nəzərdə tutur. 01.08.2025-ci il tarixindən etibarən sistem əhəmiyyətli banklar milli valyuta üzrə LCR əmsalını 50 faizdən başlamaqla 01.06.2027-ci il tarixinədək, bütün digər banklar isə 40 faizdən başlamaqla 01.12.2027-ci il tarixinədək mərhələli qaydaya 100 faizə çatdırmalıdır. Paralel olaraq, dəyişikliklər vasitəsilə bankların yüksək keyfiyyətli likvid aktiv kimi təsnifləşdirə biləcəkləri aktivlərin dairəsi də genişləndirilibdir (bank metalları, dövlət zəmanətli maliyyə institutlarının qiymətli kağızları, gecəlik (overnight) depozitlər, Mərkəzi Bankda yerləşdirilmiş qısamüddətli vəsaitlərin yüksək keyfiyyətli likvid aktiv kimi təsnifləşdirilməsinə icazə verilibdir).

Qaydaya edilən dəyişikliklər, ümumilikdə likvidlik risklərinin ölçülməsi və idarə olunması mexanizmlərinin daha çevik qurulmasına, həmçinin banklarda likvid vəsaitlərin milli və xarici valyutalar arasında bölgüsünün daha optimal proqnozlaşdırılmasına, bankların milli valyutada likvid mövqeyinin daha dayanıqlı şəkildə formalaşdırılmasına xidmət edəcəkdir.

## Dövlət büdcəsindən 152 milyon manatdan çox vəsait geri qaytarılıb

Cari ilin yanvar-iyun ayları ərzində dövlət büdcəsindən ümumilikdə 152 milyon 395,2 min manat məbləğində vəsait fiziki və hüquqi şəxslərə geri qaytarılıb.

Maliyyə Nazirliyindən bildirilib ki, geri qaytarılan vəsaitin 4 milyon 889,1 min manatı əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycanda alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara, habelə tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin payına düşür.

Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycanda pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən, o cümlədən özəl tibbi praktika ilə məşğul olan şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və xidmətlərə, eləcə də işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə görə ödənilmiş ƏDV-nin 94 milyon 402 min manatı geri ödənilib. Həmçinin fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycanda bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin 16 milyon 853,6 min manatı dövlət büdcəsindən vətəndaşlara geri qaytarılıb.

Yanvar-iyun ayları ərzində artıq ödənilmiş vergilər, dövlət rüsumu, faizlər və maliyyə sanksiyaları üzrə isə dövlət büdcəsindən geri qaytarılan vəsaitin məbləği 36 milyon 250,5 min manat təşkil edib.

# İQTİSADİ TƏRƏQQİ VƏ SOSİAL İNKİŞAFIN YORULMAZ TƏDQİQATÇISI

***Dövləti və xalqı dünyaya tanıdan amillərin sırası olduqca genişdir. Hərbi güc, iqtisadi inkişaf, xarici siyasət kursu, maddi sərvətlər çağdaş dövrümüzün əsas təqdimatları kimi özünü göstərir. Bütün bunlarla yanaşı, hər bir cəmiyyətin tarix boyu dəyişməyən və hər zaman öz aktuallığını qoruyan bir təqdimatı da var. Bu, onun sıralarından çıxan görkəmli insanlar, böyük alimlər və dəyərli ziyalılardır. 85 yaşı tamam olan akademik Ziyad Səmədzadə də öz əməlləri ilə Azərbaycanı və xalqımızı dünyada layiqincə təmsil edən görkəmli alimlərdən, tanınmış ziyalılardan biridir. Azərbaycan ictimaiyyəti onu yalnız iqtisadçı alim kimi deyil, fəal siyasi-ictimai xadim, yaradıcı insan, bacarıqlı təşkilatçı, mütərəqqi iqtisadi ideyaların daşıyıcısı kimi tanıyır.***

Ziyad Əliabbas oğlu Səmədzadə 1940-cı il iyun ayının 25-də Bakı şəhərinin Buzovna kəndində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1962-1964-cü illərdə Moskvada SSRİ Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aspiranturasında təhsil almışdır. 1965-ci ildə həmin institutda iqtisad elmləri üzrə namizədlik dissertasiyasını müdafiə etmiş, Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, elmi katib və "Xalq təsərrüfatının inkişaf sürəti və proporsiyaları" şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

Bundan sonra 1971-ci ildə iqtisad elmləri üzrə doktorluq dissertasiyasını müdafiə edən Z.Səmədzadə 1977-ci ildə professor elmi adını almışdır. Alimin doktorluq dissertasiyası "Əmək məhsuldarlığı və əhalinin məşğulluq strukturu problemləri" mövzusuna həsr edilmişdir. Z.Səmədzadə ötən əsrin 70-ci illərində ilk dəfə olaraq respublika sənayesini səciyyələndirən materiallar əsasında istehsalın səmərəlilik göstəricilərini xalis məhsula görə hesablamış, iqtisadi artım, struktur problemlərinə dair konkret elmi nəticələr əldə etmişdir. O, hələ 50 il bundan əvvəl qeyri-istehsal sahəsinin üstün sürətlə inkişaf etməsini və onun strukturunun yaxşılaşdırılmasını qanunauyğun hal və respublikanın tərəqqisi üçün əsas amillərdən hesab edirdi. Bütövlükdə Azərbaycanın xalq təsərrüfatında əmək məhsuldarlığının dinamika və inkişaf səviyyəsi, onun əsas amillərinin sistemli araşdırılması, iqtisadiyyatda struktur irəliləyişləri ilə qarşılıqlı əlaqəsinin təhlili və iqtisadi tərəqqi amilləri barədə dolğun elmi konsepsiyanın formalaşması məsələləri Ziyad Səmədzadənin tədqiqatçılıq fəaliyyəti ilə bağlıdır.

1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilən Ziyad Səmədzadənin elmi rəhbərliyi ilə 60-dan çox namizədlik, eləcə də bir neçə doktorluq dissertasiyası müdafiə olunmuşdur. Onun onlarla yetirməsi bu gün ölkəmizdə və onun sərhədlərindən kənarda səmərəli fəaliyyət göstərir.

Alimin iqtisadi tərəqqi ilə məşğulluğun strukturu, milli gəlirin sürəti və proporsiyaları, əmək ehtiyatlarının sahə, ərazi proporsiyaları, urbanizasiya, səmərəlilik problemlərinin tədqiqinə həsr edilmiş "Əmək məhsuldarlığı və məşğulluğun strukturu", "İctimai istehsalın strukturu və səmərəlilik", "Əmək məhsuldarlığı və iqtisadi inkişafın proporsiyaları"na həsr edilmiş sanballı monoqrafiyaları iqtisad elminə layiqli töhfə sayılır. Təsadüfi deyil ki, əmək məhsuldarlığı problemlərinə həsr edilmiş elmi əsərlər silsiləsinə görə 1974-cü ildə Ziyad Səmədzadə elm və texnika sahəsində Dövlət mükafatına layiq görülmüşdür.

Onun çoxcəhətli elmi fəaliyyətində regionların, o cümlədən Bakının sosial-iqtisadi inkişafının mühüm problemlərinin tədqiqi xüsusi yer tutur. Alimin araşdırmalar əsasında yazdığı "1970-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafı problemləri", "Bakının sosial-iqtisadi inkişafı" tədqiqatları əsasında konkret tövsiyələr hazırlanaraq ali idarəetmə orqanlarına təqdim olunmuşdur. Bu monoqrafifalar həm də Azərbaycan iqtisad elminə layiqli töhfə sayılır.

Sağlam düşüncəyə, sistemli təhlilin incəliklərinə bələd olan alimin elmi rəhbərliyi və bilavasitə iştirakı ilə keçən əsrin 80-ci illərində "Demoqrafik inkişaf və əmək ehtiyatlarından istifadə", "Dağ rayonlarının sosial-iqtisadi inkişafı", "Material tutumu", "Enerji tutumu" adlı məqsədli proqramlar hazırlanmışdır.



Bu proqramlar özünün konkretliyi və ünvanlı olması, hər bir şəhər və rayon, sahələr üzrə məqsədlərə nailolma mexanizminin mövcudluğu ilə fərqlənirdi ki, bu da keçmiş sərt planlaşma və idarəetmə sistemində fərqli bir yanaşma hesab edilirdi.

Z.Səmədzadə 1976-1982-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsi ETTİ-nin direktorunun birinci müavini, Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru vəzifələrində çalışmışdır. 1983-cü ilin yanvarında Ulu Öndər Heydər Əliyevin tövsiyəsi ilə Azərbaycan Mərkəzi Komitəsində İqtisadiyyat şöbəsinin müdiri vəzifəsinə təyin edilmiş və 1991-ciilədək bu vəzifədə çalışmışdır. Ümumilikdə isə 1983-1993-cü illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı və Plan-büdcə komissiyasının sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini, habelə TACİS, TRACECA proqramları üzrə Azərbaycanın Milli Koordinatoru kimi fəaliyyət göstərmişdir. Onun bilavasitə rəhbərliyi ilə 1987-1991-ci illərdə Azərbaycanın iqtisadi müstəqillik konsepsiyası, eləcə də müxtəlif qanun layihələri hazırlanaraq parlament tərəfindən qəbul edilmişdir.

***Ötən əsrin 80-ci illərinin sonlarında uydurma Dağlıq Qarabağ probleminin ilk günlərindən akademik Ziyad Səmədzadə ermənilərin Azərbaycanın bu qədim diyarının "sosial-iqtisadi geriliyi haqqında" əsassız iradlarının təhlilinə başlamışdır. Azərbaycana qarşı irəli sürülən saxta ittihamlar, guya ermənilərin həyat səviyyəsinin aşağı olması, onlara qarşı sosial-mədəni baxımdan ayrı-seçkilik edilməsi ilə bağlı iftiralar onun tərəfindən əsaslandırılmış dəlillərlə təkzib edilmişdir. Akademikin həmin dövrdə hazırladığı tədqiqatların əksəriyyəti geniş əks-səda doğurmuş "Dağlıq Qarabağ: naməlum həqiqətlər", "Naqornıy Karabax: neizvestnaya pravda" adlı kitablarında öz əksini tapmışdır.***

Ziyad Səmədzadənin elmi fəaliyyətində Azərbaycanın iqtisadi müstəqilliyi problemlərinin araşdırılması xüsusi yer tutur. Akademik həmkarları ilə birlikdə bütövlükdə SSRİ və digər müttəfiq respublikalar üzrə külli miqdarda müqayisəli materiallar əsasında elmi hesablamalar apararaq mərkəzləşdirilmiş plan-maliyyə sisteminə xas ciddi qüsurları üzə çıxardı və sübut etdi ki, xalqın respublikanın ərazisində yaradılmış milli gəlirdən istifadə etmək hüquqları yolverilməz dərəcədə məhduddur. Sonralar bu, Azərbaycanın iqtisadi müstəqilliyi haqqında qanun layihəsi üçün əsas mənbələrdən birinə çevrildi. 1989-cu ildə akademikin rəhbərliyi ilə Azərbaycanın iqtisadi müstəqilliyi problemlərinə həsr olunmuş respublika miqyaslı elmi-praktik konfransın keçirilməsi ölkəmizdə yeni iqtisadi münasibətlərin formalaşdırılmasına kömək etdi.

Respublikanın elmi qüvvələrini "Azərbaycan XXI əsrin astanasında" problemi ətrafında cəmləşdirmək üçün Z.Səmədzadənin əhatəli elmi təşkilatçılıq fəaliyyəti xüsusi qeyd edilməlidir. Bu deviz altında 1997-1998-ci illərdə keçirilmiş iki beynəlxalq elmi-praktik konfransın rəhbəri olmuş akademik həmin tədbirin yaradıcı qrupu ilə birlikdə müasir vəziyyətdən və bəşəriyyətin inkişaf perspektivlərindən çıxış edərək XXI əsrin ən mühüm problemlərini müəyyənləşdirməyə səy göstərmişdir. Akademikin elmi redaktəsi ilə "Azərbaycan XXI əsrin astanasında" üççildliyi nəşr edilmişdir. Qeyd etmək lazımdır ki, üççildliyə daxil edilmiş elmi baxışlar mahiyyət etibarilə XXI əsrin mürəkkəb problemlərinin həllində Azərbaycan elminin iştirakını fəallaşdırmaq üçün ilk uğurlu cəhdlərdən biridir.

Ümumiyyətlə, akademikin iqtisadi araşdırmalarında Azərbaycan iqtisadiyyatı dünya təsərrüfatı sisteminin tərkib hissəsi kimi nəzərdən keçirilir. O, Azərbaycan iqtisadiyyatının inkişafını ümumdünya miqyaslı iqtisadi inkişaf kontekstində təqdim edir. Eyni zamanda, haqlı olaraq alim bu qənaətə gəlir ki, qloballaşma və ümumdünya inteqrasiya prosesinin dərinləşməsi şəraitində gənc suveren dövlətin milli dövlətçilik mənafeyinin, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi çox böyük əhəmiyyət kəsb edir. Ziyad Səmədzadənin dövlətin iqtisadi təhlükəsizliyi probleminə həsr edilmiş və hələ 30 il bundan əvvəl apardığı tədqiqatları, məqalələri, elmi ideya və məruzələri mahiyyət etibarilə respublika iqtisad elminin yeni istiqamətinin yaranmasına güclü təkan vermişdir.

Ziyad Səmədzadənin elmi fəaliyyətində ən mühüm tədqiqat əsəri kimi qiymətləndirilən və 2004-cü ildə nəşr olunan ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş və rus dilində işıq üzü görmüş "Böyük yolun mərhələləri" ("Этапы большого пути") adlı irihəcmli monoqrafiya öz elmi tutumu, məntiqi və şərhi üslubuna görə fərqlənir. Burada Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri, spesifik cəhətləri, ümumi qanunauyğunluqları tədqiq olunmaqla onun perspektiv inkişafının konseptual əsasları araşdırılır. Kitabda 1950-2000-ci illərdə Azərbaycan iqtisadiyyatının keçdiyi yol sistemli təhlil edilmiş, ölkə iqtisadiyyatının strukturunda baş verən dəyişikliklər dərindən və əsaslandırılmış şəkildə tədqiq edilərək ümumiləşdirilmiş, gələcək prioritetlər barədə fikirlər açıqlanmışdır. SSRİ Dövlət Plan Komitəsinin keçmiş sədri Nikolay Baybakovun və akademik L.Abalkinin fikrincə, bu əsəri XXI əsrin ikinci yarısında Azərbaycanın iqtisadi inkişafı barədə əsl ensiklopedik əsər kimi xarakterizə etmək olar. Akademik Ziyad Səmədzadənin dövlətin iqtisadi təhlükəsizliyi probleminə həsr edilmiş müstəqilliyin ilk illərində apardığı tədqiqatları, məqalələri, elmi ideyaları və məruzələri mahiyyət etibarı ilə, respublikada iqtisad elminin bu yeni istiqamətinin yaranmasının əsasını təşkil etmişdir.

***Alimin Çində, MDB məkanında və bir çox Avropa, Asiya ölkələrində yüksək qiymətləndirilən "Dünya iqtisadiyyatı: Çin iqtisadi möcüzəsi" (2001-ci il), "Çin qlobal dünya iqtisadiyyatında" (2009-cu il), "Китай в глобальной мировой экономике" (2010-cu il) əsərlərini də qeyd etmək yerinə düşərdi. Xüsusi vurğulanmalıdır ki, akademik Ziyad Səmədzadə Çin iqtisadi fenomenini Azərbaycanda tədqiq edən ilk alimlərdəndir.*** Kitablarında Çin modelinin hərəkətverici qüvvəsi olan iqtisadi islahatların atası Den Syaopin islahatlarının dərin qatları ətraflı şəkildə təhlil edilir. Müəllifin haqlı fikrinə görə, "Çin möcüzəsi"nin mühüm sirlərindən biri də odur ki, ölkədə aparılan iqtisadi islahatlarda radikallığa yol verilmədi, mülkiyyət formaları qarşı-qarşıya qoyulmadı, struktur islahatları sənayedə mərhələ-mərhələ aparıldı, dövlət iqtisadiyyatı ilə yanaşı, özəl sektora da yol açıldı. Məlum olduğu kimi, müasir iqtisadi proseslər diqqətlə nəzərdən keçirildikdə aydın olur ki, bu ölkədə yeni informasiya iqtisadiyyatı qlobal miqyasda fəaliyyət göstərir. Ona görə də Çin inkişaf modelinin dünya təsərrüfatı sisteminə inteqrasiya təcrübəsi çox əhəmiyyətlidir. Beləliklə, akademik Z.Səmədzadənin "Çin qlobal dünya iqtisadiyyatında" kitabı Azərbaycanın iqtisad elmində böyük hadisədir. Unikal iqtisadi inkişaf modeli haqqında yazılan bu nadir əsər Azərbaycanla Çin arasında dostluq əlaqələrinin inkişafına özünün müsbət təsirini göstərir.

İnsan biliklərinin bütün istiqamətləri üzrə təfərrüatları bir araya gətirən ensiklopediyaların tarixi uzun olsa da, Azərbaycanda bu mühüm və dəyərli fəaliyyət sahəsində məqsədyönlü və ardıcıl iş ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin təşəbbüsü və dəstəyi ilə 1976-1987-ci illərdə çap edilən on cildlik "Azərbaycan Sovet Ensiklopediyası" ölkə tarixinə bilik və məlumatların bütün sahələrini əhatə edən ilk fundamental əsər kimi daxil olub. Prezident İlham Əliyev həmin ensiklopediyanın nəşrini Azərbaycanın elmi və mədəni həyatında tarixi hadisə kimi səciyyələndirib.

Prezident İlham Əliyevin baş redaktorluğu ilə artıq Azərbaycan Milli Ensiklopediyasının on bir cildi nəşr olunaraq




oxucuların istifadəsinə verilib. Bu nəşrlər ölkəmizdə sahə ensiklopediyalarının hazırlanması işini də aktuallaşdırdı, bir çox reallıqlar isə iqtisadi ensiklopediyanın yaradılmasını zərurətə çevirdi. Bu missiyanı üzərinə götürən akademik Ziyad Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə hazırlanıb nəşr edilən irihəcmli fundamental "Böyük İqtisadi Ensiklopediya" respublikamızın elmi həyatında böyük hadisəyə çevrildi. İlk beş cildi 2012-ci ildə, altı və yeddinci cildləri isə 2015-ci ildə işıq üzü görən yeddicildlikdə ilk dəfə olaraq ölkəmizdə azad bazar sisteminin formalaşmasının bütün aspektləri barədə ətraflı yazılar verilmiş, 200 il ərzində, xüsusilədə müstəqillik dövründə Azərbaycan iqtisadiyyatında baş vermiş dəyişikliklər təhlil edilmiş, inkişaf strategiyasının əsas hədəfləri açıqlanmışdır. "Böyük İqtisadi Ensiklopediya" da bəşəri iqtisad elminin keçdiyi mərhələlər ətraflı nəzərdən keçirilmiş, dünya iqtisad elmində formalaşmış iqtisadi baxışların müasir dünya və milli maraqlar baxımından qiymətləndirilməsinə cəhdlər edilmişdir. İqtisadi proseslər, iqtisadi terminlərin mahiyyətinin daha yaxşı mənimsənilməsi məqsədi ilə 1500-dən çox sxem, cədvəl, qrafik və şəkildən istifadə edilmişdir.

***Dünyada iqtisadi enisklopediyaların buraxılışı nadir hadisələrdən sayılır. Oxuculara təqdim edilən "Böyük İqtisadi Ensiklopediya" özünün əhatə dairəsi, strukturu, əyani vasitələrdən istifadə səviyyəsinə görə Avropa, MDB məkanında ilk çoxcildlikdir.***

Akademik Ziyad Səmədzadə 2023-cü ilin may ayında isə növbəti möhtəşəm və fundamental əsəri olan "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyini ictimaiyyətə təqdim edib. Alimin uzunillik elmi-iqtisadi araşdırmalarının və yaradıcılığının növbəti bəhrəsi olan bu topluda Azərbaycan iqtisadiyyatının son 100 ildə keçdiyi yol elmi cəhətdən geniş təhlil edilir. Azərbaycan iqtisadiyyatının yüzillik dövrü barədə ən fundamental araşdırmaları və analitik yanaşmanı özündə əks etdirən nəşrdə respublikamızın hərtərəfli inkişaf modelinin elmi-nəzəri əsasları barədə dərin tədqiqi materiallara geniş yer verilib. Ziyad Səmədzadə Azərbaycan iqtisadiyyatının inkişaf meyilləri barədə informasiyaları, müqayisələri həm də cədvəllər və qrafiklər əsasında oxucuya çatdırır. Beşcildlikdə zəngin arxiv materialları əsasında 400-dən artıq cədvəl və qrafik yer alıb. Bütövlükdə isə nəşrdə 1000-dən artıq mənbəyə istinad olunub.

Ziyad Səmədzadənin torpaqlarımızın azad edilməsinə və Qarabağın quruculuğu proseslərinə başqa bir yaradıcı töhfəsi 2023-cü ilin noyabr ayında ictimaiyyətə təqdim etdiyi "Şuşa-270. Şuşanın demoqrafik, sosial-iqtisadi inkişafı: dünən, bu gün və perspektivlər" adlı kitabdır. Azərbaycanın, eləcə də Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamış Şuşa haqqında tədqiqat aparmaq böyük şərəf və məsuliyyət deməkdir. Bu baxımdan ana xəttini torpaqlarımızın azadlığı təşkil edən bu kitab Şuşanın tarixinin, sosial-iqtisadi və demoqrafik göstəricilərinin öyrənilməsi, əhalinin məşğulluq problemlərinin araşdırılması baxımından istinad ediləcək dəyərli mənbələrdən biridir.

Xüsusi ilə qeyd edilməlidir ki, "Şuşa-270. Şuşanın demoqrafik, sosial-iqtisadi inkişafı: dünən, bu gün və perspektivlər" adlı kitab Vətən müharibəsindən sonra Qarabağ mövzusunda iqtisadiyyat üzrə qələmə alınmış ilk əsərdir. Bunlar bir daha Ziyad Səmədzadənin milli və dövlətçilik maraqlarının əzmkar fədaisi olduğunu təsdiq edir.

Alimin "Azərbaycan iqtisadiyyatı Böyük Vətən müharibəsi illərində" mövzusu ilə əlaqədar apardığı tədqiqatlar da diqqətəlayiqdir. Z.Səmədzadə xalqımızın tarixində unudulmaz yer tutan bu dövrü arxiv sənədlərinə əsaslanaraq təhlil etmişdir. Onun 2005, 2010 və 2020-ci illərdə İkinci Dünya müharibəsinin başa çatmasının ildönümləri ilə əlaqədar ərsəyə gətirdiyi "Bakı nefti olmasaydı, faşizm üzərində qələbə olmazdı" ("Без Бакинской нефти не было бы победы") və "Qaliblər - Azərbaycan Böyük Vətən müharibəsi illərində" ("Победители - Азербайджан в годы Великой Отечественной войны") adlı kitabları da maraqlı faktlarla zəngindir.

Bu il isə Ziyad Səmədzadənin İkinci Dünya Müharibəsində alman faşizmi üzərində qələbənin 80 illiyinə həsr etdiyi "Bakı nefti – faşizm üzərində qələbənin açarı" ("Нефть Баку - ключ к победе над фашизмом") kitabı rus dilində işıq üzü görüb. Alimin dərin araşdırmalarının və yaradıcılığının növbəti bəhrəsi olan bu kitabda yer alan tarixi faktların bir qismi ilk dəfədir ki, ictimaiyyətə açıqlanır. Kitabda xalqımızın alman faşizmi üzərində qələbənin qazanılmasına verdiyi töhfələrlə yanaşı, Azərbaycanın sovet hakimiyyəti illərində üzləşdiyi haqsızlıqlar, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçılıq siyasəti, Ali Baş Komandanlığınızın Dəmir Yumruğu ilə 44 günlük müharibədə qazandığımız şanlı Zəfərlə bağlı materiallar yer almışdır. Bu isə Azərbaycan həqiqətlərinin olduğu kimi beynəlxalq ictimaiyyətə çatdırılması, ölkəmizlə bağlı formalaşmış obyektiv rəyin daha da gücləndirilməsi, saxta erməni təbliğatının qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bütövlükdə Ziyad Səmədzadənin əzmlə ərsəyə gətirdiyi, dərin elmi təhlilə əsaslanan, faktoloji zənginliyi və ensiklopedik səciyyə daşıması ilə seçilən kitabları istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda geniş oxucu auditoriyası qazanıb.

Onu da böyük məmnunluqla qeyd etməliyik ki, görkəmli alim 50 ildən artıqdır ki, çoxsaylı simpozium və konqreslərdə Azərbaycanı ləyaqətlə təmsil edir. Strasburq və Stokholm, San-Fransisko və Barselona, İstanbul və Brüssel, Sidney və Paris, Moskva və Sankt-Peterburq, Kiyev, Vaşinqton, Akaba, Pekin şəhərlərində keçirilən tədbirlərdəki iştirakını misal göstərmək olar. O həm də yeni ideya və üsulların, müasir iqtisadi təfəkkürün yorulmaz təbliğatçısıdır. Bu ideyalar akademikin 1981-1992-ci illərdə baş redaktoru olduğu "Azərbaycanın xalq təsərrüfatı" jurnalının səhifələrində ardıcıl şərh edilir. 1999-cu ildən isə akademik "İqtisadiyyat" qəzetinin təsisçisidir.

***İdeyaları, prinsipləri ilə insanları səfərbər etmək, cəmiyyəti istiqamətləndirmək – bunu bacarmaq çox çətindir. Akademik Ziyad Səmədzadə öz fəaliyyəti ilə məhz bu çox çətin olanı bacaranlardandır. Onun ömür kitabını vərəqləyəndə bir daha əmin olursan ki, bu ömür təkcə onun özünə, onu yetirən torpağa, millətə xas deyil, bütün insanlığa məxsusdur. Qazandığı uğurların kökündə isə yenə də zəhməti, seçdiyi yola bütün varlığı ilə inamı dayanır. O, bu gün yorulmaz fəaliyyəti ilə elmi-ictimai mühitdə nümunə göstərir.***

Mənalı ömür yolunun 85-ci pilləsinə qədəm qoymuş akademik Ziyad Səmədzadə hazırda da yorulmadan yazıb-yaradır, parlamentdə və cəmiyyətdə fəallığı ilə seçilir, elmi çevrələrdə Azərbaycan iqtisad elminin ağsaqqalı kimi qəbul olunur. Bu etirafla yanaşı, akademik Ziyad Səmədzadə böyük insanlığı, vətənpərvərliyi, zəngin mənəviyyatı, dərin biliyi, istedadı, üstəgəl qibtə olunacaq zəhmətsevərliyi ilə ictimai mühitdə xüsusi nüfuz qazanmışdır.

Azərbaycanın görkəmli iqtisadçı alimi, dəyərli ziyalımız, çox hörmətli Ziyad Səmədzadəni 85 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, elmimizin inkişafı yollarında yeni nailiyyətlər arzulayırıq.

**İsa Həbibbəyli,**
**Azərbaycan Milli Elmlər**
**Akademiyasının prezidenti, akademik**

**Qorxmaz İmanov,**
**Azərbaycan Milli Elmlər**
**Akademiyasının müxbir üzvü,**
**Dövlət mükafatı laureatı**

**"Azərbaycan" qəzeti, 25 iyun 2025-ci il**

# Зияд Самедзаде – 85

Продолжают поступать поздравления в связи с юбилеем в адрес известного ученого, депутата Милли Меджлиса, кавалера орденов «Шараф» и «Шохрат» академика Зияда Самедзаде.
Зияд Самедзаде является почетным президентом Международной академии управления, азербайджанского филиала Европейской международной академии, а также вице-президентом Международного союза экономистов, председателем Союза экономистов Азербайджана.

Национальная академия
наук Беларуси

25 июня 2025 года
г.Минск

Уважаемый Зияд Алиаббасович!

Примите сердечные поздравления по случаю Вашего 85-летия!

Вы встречаете свой юбилей активной работой на благо процветания братского Азербайджана.

В Беларуси высоко ценят Ваш весомый вклад в развитие дружественных отношений между нашими странами, Ваше активное содействие укреплению стратегического партнерства двух государств.

Как видный ученый-экономист, академик Национальной академии наук Азербайджана и депутат Парламента Азербайджана Вы всемерно способствуете развитию научного сотрудничества Беларуси и Азербайджана.

От всей души желаю Вам, уважаемый Зияд Алиаббасович, крепкого здоровья, мира, благополучия, новых успехов и достижений!

С уважением,

Владимир Степанович Караник
Председатель Президиума
Национальной академии
наук Беларуси

Зияд Алиаббас оглы Самедзаде
Академик Национальной академии
наук Азербайджана,
Депутат Парламента Азербайджана

## М.Гусман предложил провести конференцию о роли Президента Ильхама Алиева в развитии медиа



Имеет смысл провести конференцию в ноябре о роли Президента Ильхама Алиева в развитии медиа. Об этом сказал первый заместитель генерального директора ТАСС Михаил Гусман на конференции на тему «Роль общенационального лидера Гейдара Алиева в развитии медиа», организованной Агентством по развитию медиа.
«В ноябре этого года исполнится пять лет со дня действительно великой Победы Азербайджана. Об этом будут говорить, об этом будут писать. Но я бы обратиться к руководству Азербайджана. Имеет смысл провести конференцию в ноябре о роли Президента Ильхама Алиева в развитии медиа. Это будет очень справедливая и нужная конференция», - сказал он.
Гусман подчеркнул, что те интервью, которые дал Президент Ильхам Алиев во время 44-дневной войны, - это величайший пример фантастической профессиональной журналистской дипломатии.
«Я знаю, что есть книга с этими интервью, но, мне кажется, это заслуживает отдельного разговора и отдельного анализа. Я буду счастлив, если такая конференция будет. Заранее попрошусь участвовать», - сказал он.
Михаил Гусман также подчеркнул ключевую роль Гейдара Алиева в становлении азербайджанской прессы.
«Тогда медиа, газеты стали гораздо более открытыми, потому что с первого дня на посту Первого секретаря ЦК — руководителя республики — Гейдар Алиев уделял огромное внимание прессе. В Баку издавались замечательные газеты: и «Бакинский рабочий», и газета «Коммунист», которая выходила на азербайджанском языке», - сказал он.
По его словам, это был отклик профессиональных журналистов на те преобразования, которые начались в республике благодаря Гейдару Алиеву.
«Я пришёл к выводу, что в XX веке только два человека могли искренне сказать о себе: «Я спас свою страну». В личном качестве это могли сказать только Черчилль – перед началом Второй мировой войны – и Гейдар Алиев. Это действительно два человека, которые, благодаря своей воле и лидерству, спасли свои страны», - добавил Гусман.

## Финляндия увеличила инвестиции в экономику Азербайджана

В первом квартале этого года объем прямых иностранных инвестиций Финляндии в экономику Азербайджана составил 19,348 миллиона долларов США.
Об этом сообщили в Центральном банке Азербайджана. Согласно информации, по сравнению с показателем за тот же период 2024 года инвестиции из указанной страны в экономику Азербайджана выросли на 18,7 миллиона долларов США, или в 30,9 раза.
Доля инвестиций из Финляндии в общем объеме прямых иностранных инвестиций в Азербайджан за отчетный год составила 1,3%.
В свою очередь, Азербайджан в первом квартале 2025 года инвестировал в экономику Финляндии 5,565 миллиона долларов США, что на 4,7 миллиона долларов США, или в 6,4 раза больше, чем за тот же период 2024 года. В общем объеме прямых иностранных инвестиций удельный вес азербайджанских инвестиций, осуществляемых в Финляндию, составил 1,8%. Напомним, что в первом квартале 2024 года объем прямых иностранных инвестиций из Финляндии в Азербайджан составил 627 тысяч долларов США, а объем инвестиций из Азербайджана в указанную страну - 867 тысяч долларов США.

## В Баку состоялся прием по случаю Дня Независимости Республики Беларусь





В Баку состоялся торжественный прием по случаю Дня независимости Республики Беларусь.
На торжественном приеме по случаю Дня независимости Республики Беларусь с речью выступил чрезвычайный и полномочный посол Беларуси в Азербайджане Дмитрий Пиневич.
Приветствуя заместителя премьер-министра Шахина Мустафаева, представителей дипломатического корпуса, а также гостей мероприятия, посол подчеркнул, что праздник Дня независимости Беларуси напрямую связан с освобождением страны от фашизма, и в этом году он отмечается в знаковый период — к 80-летию Победы во Второй мировой войне.
В своем выступлении дипломат отметил, что белорусский народ понес в годы войны огромные потери: на фронтах сражались более 1,3 миллиона уроженцев Беларуси, 400 тысяч человек участвовали в партизанских отрядах. Каждый третий житель страны погиб, в немецкий плен было угнано 380 тысяч человек. Враг разрушил 209 городов, сжег более 12 тысяч сел и деревень, в том числе 288 — вместе с жителями. Перерасчет нанесенного ущерба составил сумму, эквивалентную более 43,5 тысячам тонн золота, или 2 триллионам 355 миллионам долларов США.
Посол отметил, что с момента окончания войны между Беларусью и Азербайджаном было пройдено множество исторических вех, а двусторонним дипломатическим отношениям в этом году исполнилось 32 года. За это время сотрудничество вышло на уровень стратегического партнерства, основанного на многолетней дружбе и братском взаимодействии лидеров двух стран - Ильхама Алиева и Александра Лукашенко.
Дмитрий Пиневич также рассказал о развитии прямых связей между регионами и городами двух стран, активизации торгово-экономического и гуманитарного сотрудничества, а также важности вклада каждого, кто вносит свой труд в укрепление двусторонних отношений.
Он отдельно поблагодарил представителей парламента, Общества дружбы «Азербайджан-Беларусь», ректоров вузов и руководителей центров изучения белорусского языка в Азербайджане.
Далее выступил заместитель премьер-министра Азербайджанской Республики Шахин Мустафаев поздравил правительство и народ Беларуси с национальным праздником, пожелав дальнейшего благополучия, мира и процветания.
Он напомнил, что за годы независимости азербайджано-белорусские отношения значительно укрепились и достигли высокого уровня взаимовыгодного стратегического партнерства. На сегодняшний день между странами подписано более 170 двусторонних документов, охватывающих широкий спектр направлений.
Заместитель премьер-министра подчеркнул, что политическая воля глав государств — Президента Ильхама Алиева и Президента Александра Лукашенко — является фундаментом динамичного развития отношений. Он отметил, что в 2024 году состоялось два визита Президента Беларуси в Азербайджан, в том числе в город Шушу, а также официальный визит премьер-министра Беларуси в Азербайджан.
Шахин Мустафаев сообщил, что в 2024 году в Минске успешно прошло 14-е заседание Межправительственной комиссии по экономическому сотрудничеству, в ходе которого стороны обозначили конкретные шаги по расширению партнерства.
«Уверен, что практическая реализация поручений президентов и совместных проектов послужит укреплению взаимовыгодного сотрудничества, а потенциал наших отношений будет реализован в полной мере», — заявил в завершение Шахин Мустафаев.
Он подчеркнул, что Азербайджан настроен на продолжение тесных и дружественных отношений с Беларусью, выразив уверенность в дальнейшем укреплении связей по всем направлениям стратегического партнерства.
В рамках приема посол вручил родственникам воинов-освободителей поздравления Президента Беларуси Александра Лукашенко в форме памятных солдатских писем – «солдатские треугольники» - Героя Советского Союза Наджафгулу Рзаева, Героя Советского Союза Мелика Магеррамова, а также погибшего в 1944 году в бою при освобождении Гомельской области Джалала Заманова.
Далее гости ознакомились с фотовыставкой «Суверенная Беларусь», фото и видеосюжетами на тему освобождения Беларуси.
В ходе мероприятия звучали белорусские песни, гостям были предложены блюда белорусской национальной кухни.
Отметим, что на мероприятии присутствовали официальные представители правительства, а также аккредитованные послы в Азербайджанской Республике.

## Посольство Беларуси в Азербайджане почтило память героев

Посольство Беларуси в Азербайджане почтило память героев 02.07.2025 г. Республика Беларусь 3 июля отмечает День Независимости (День Республики). Посол Беларуси в Азербайджане Дмитрий Пиневич и дипломаты Посольства возложили в Баку цветы к памятнику дважды Герою Советского Союза генерал-майору Ази Асланову и на могилу Героя Советского Союза Наджафгулу Рафиева, участвовавших в освобождении Беларуси.
Беларусь помнит!





# Rəqabət inkişafın əsas amili kimi

## (müstəqil kənar audit aspektində)

***Müasir iqtisadi sistemlərin səmərəli fəaliyyəti üçün şəffaflıq, hesabatlılıq və ədalətli oyun qaydalarının təmin olunması əsas şərtlərdən biridir. Bu baxımdan, audit sistemi yalnız maliyyə yoxlamalarının aparılması vasitəsi deyil, eyni zamanda iqtisadi münasibətlərdə rəqabətin formalaşmasına və qorunmasına əhəmiyyətli təsir edir.***



**Rövşən Cəfərli, Azərbaycan Respublikası Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi**

Rəqabət iqtisadiyyatın dinamik və dayanıqlı inkişafında əsas amillərdən biridir. Audit isə bu rəqabətin sağlam şəkildə inkişaf etməsi üçün zəmin yaradan vasitələrdən biridir. Xüsusilə müstəqil audit şirkətləri müəssisələrin maliyyə hesabatlarını dəqiqlik və dürüstlük prinsipləri əsasında qiymətləndirərək onların fəaliyyətini obyektiv şəkildə əks etdirir. Beləliklə, bazar iştirakçıları arasında ədalətli müqayisə və qiymətləndirmə imkanı yaranır. Şirkətlər auditor təsdiqli hesabatlarla həm yerli, həm də beynəlxalq bazarlarda etibarlı imic formalaşdırır, bu da onların investisiya cəlbediciliyini artırır.

Rəqabət yalnız xidmətlərin keyfiyyəti və qiyməti ilə ölçülmür. Rəqabətin bir digər mühüm tərəfi də şəffaf və hesabatlı idarəetmə prinsiplərinə əsaslanan fəaliyyət modelidir. Bu baxımdan audit, müəssisələrin səmərəli fəaliyyətinə və strateji qərarların qəbuluna dəstək olmaqla, onların bazar mübarizəsində üstün mövqe qazanmasına kömək edir.

**Audit sistemində rəqabət dedikdə, auditor təşkilatları və sərbəst auditorlar arasında müştəri cəlb etmək, xidmətin səviyyəsini yüksəltmək və etibar qazanmaq uğrunda aparılan qanuni və etik mübarizə başa düşülür. Rəqabət bu sahədə aşağıdakı üstünlükləri yaradır:**

- *Keyfiyyətin yüksəlməsi – Auditorlar daha dəqiq, şəffaf və beynəlxalq standartlara uyğun xidmətlər göstərməyə çalışırlar;*
- *Qiymətlərin sabitliyi – Rəqabətli mühitdə xidmətin dəyəri bazar reallığına uyğun tənzimlənir;*
- *Müştəri məmnuniyyəti – Etibarlı və şəffaf audit xidmətləri müştəri etibarını gücləndirir.*

Sağlam rəqabət etik prinsiplərə və hüquqi çərçivələrə uyğun şəkildə aparıldıqda, audit sektorunda güclü peşəkar mühit formalaşır. Bu zaman auditorlar daha məsuliyyətli davranır, müstəqillik prinsiplərinə sadiq qalır və hesabatların obyektivliyini qoruyur.

**Lakin təəssüf ki, bəzi hallarda audit sistemində haqsız rəqabət və dempinq kimi mənfi təzahürlər müşahidə olunmaqdadır. Belə hallar:**

- *Audit xidmətinin keyfiyyətini zəiflədir;*
- *Auditorların müstəqilliyini təhlükəyə atır;*
- *Bazarın etibarlılığını azaldır;*
- *Auditor peşəsinin nüfuzunu sarsıdır.*

Haqsız rəqabət, audit bazarında iştirak edən subyektlərin etik və hüquqi normaları pozaraq üstünlük qazanmağa çalışması ilə xarakterizə olunur. Bu cür davranış audit peşəsinin əsas prinsipləri olan dürüstlük, obyektivlik və məsuliyyətliliklə ziddiyyət təşkil edir.

**Audit sahəsində haqsız rəqabətin bəzi nümunələri aşağıdakılardır:**

**Qiymət dempinqi:** Audit xidmətlərinin bazar dəyərindən kəskin aşağı qiymətə təklif edilməsi.

**Yalançı reklam:** Öz xidmətlərinin real olmayan formada təqdim edilməsi və digər şirkətlərin nüfuzuna xələl gətirilməsi.

**Məlumatların qeyri-qanuni istifadəsi:** Rəqib şirkətlərin müştəri bazası və ya kommersiya sirlərinin qeyri-qanuni yollarla əldə olunaraq istifadə edilməsi.

**Peşə etikası pozuntuları:** İcazəsiz fəaliyyət, sertifikatsız əməkdaşların işə cəlb olunması, müstəqillik prinsipinə zidd davranışlar.

**Audit sahəsində haqsız rəqabət təkcə auditorların fəaliyyətinə deyil, daha geniş mənada iqtisadi sabitliyə də təhlükə yaradır:**

**Etimadın azalması** - Audit hesabatlarına olan inam zəifləyir, maliyyə nəticələrinin obyektivliyinə şübhə yaranır.

**Keyfiyyətin aşağı düşməsi** - Qiymət əsasında rəqabət keyfiyyətin arxa plana keçməsinə səbəb olur.

**Peşə nüfuzunun zədələnməsi** - Audit peşəsinə ümumi ictimai baxış mənfi istiqamətə yönəlir.

İctimai və hüquqi nəticələr - Audit hesabatlarına əsaslanaraq qərar verən investorlar və dövlət orqanları yanlış istiqamətə yönəlir, nəticədə iqtisadi itkilər baş verir.

**Rəqabətli və sağlam audit mühiti üçün normativ tənzimləmə zəruridir. Auditorlar Palatası bu istiqamətdə:**

- *Minimum xidmət tariflərini müəyyən edir;*
- *Etik qaydalara nəzarət edir;*
- *Haqsız rəqabətlə bağlı şikayətləri qəbul edir və araşdırır;*
- *Təlim və maarifləndirmə tədbirləri təşkil edir.*

Rəqabət yalnız qiymət deyil, xidmətin keyfiyyəti, peşə etikası və müştəri məmnuniyyəti əsasında formalaşmalıdır. Auditorların öz reputasiyasına və peşəkarlığına dəyər verməsi, uzunmüddətli etimada əsaslanan münasibətlərin qurulmasına töhfə verir.

Nəhayət, sağlam rəqabət təkcə iqtisadiyyatın effektivliyinə deyil, həm də dövlətin fiskal siyasətinin icrası, korrupsiya ilə mübarizə və vətəndaş cəmiyyətinin inkişafı baxımından vacib rol oynayır. Buna görə də audit sistemində rəqabətin tənzimlənməsi, onun ədalətli və şəffaf mexanizmlərlə dəstəklənməsi Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının təminatçısı ola bilər. Nəticə etibarilə, hər bir peşəkar auditor bu məsuliyyətin fərqində olaraq, həm peşəsinə, həm də ölkəsinə xidmət etdiyinin fərqində olmalıdır.

# Sənayenin inkişafında maneələrin və çətinliklərin aradan qaldırılmasına start verilib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə iqtisadiyyatın gələcək dövrün çağırışlarına uyğunlaşdırılmasına imkan verilməsi məqsədilə yaradılan İqtisadi Şuranın 11 aprel 2025-ci il tarixli Qərarına əsasən, şuranın tərkibində Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə işçi qrupu yaradılıb.

İşçi qrupunun yaradılmasında əsas məqsəd sahibkarlıq fəaliyyətinə maneə yaradan, habelə qurumların səlahiyyətlərindən irəli gələn sui-istifadə hallarının müəyyən edilməsi və aradan qaldırılması, qanunvericilikdə olan boşluqlardan sahibkarların əleyhinə istifadə hallarının qarşısının alınması, iqtisadiyyatın müxtəlif sahələri üzrə sahibkarların üzləşdiyi problemlərin dərindən araşdırılması və təhlili, müvafiq təkliflərin hazırlanması və təqdim olunmasında çevik və səmərəli fəaliyyətin təşkilindən ibarətdir.

Ölkə başçısı işçi qrupunun qarşısında sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması tapşırığı qoyub.

İqtisadi sahənin əsas sütunu olan sənaye sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Koordinasiya Qrupunun rəhbəri "Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri və Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) İdarə Heyətinin sədri Bəşirov Elxan Hidayət oğlu seçilib. Koordinasiya qrupu ölkənin 100-dən çox aparıcı şirkətləri özündə birləşdirir. Qrupun rəhbəri koordinasiya üzvləri ilə birgə maneə və çətinliklərlə bağlı təklifləri müzakirə edir, onları təhlil edərək optimallaşdırır və qanunvericiliyə uyğun formada layihələndirərək ölkə başçısının köməkçisinə təqdim edir.



Sahibkarlara yaradılan maneələr dövlət proqramlarının icrasını gecikdirir. Bu maneələr birdəfəlik aradan qaldırılmalı və bunun üçün lazımi tədbirlər görülməlidir. Ölkənin sosialyönümlü iqtisadiyyatı və ölkə başçısı tərəfindən nümayiş etdirilən güclü siyasi iradəyə uyğun olaraq ölkədə iqtisadi aktivliyin artırılması və insanların iş yerləri ilə təmin edilməsi iqtisadi siyasətin prioritetliyinin göstəricisidir.

Həyata keçirilən bütün bu tədbirlər və aparılan islahatlar sənaye sahələrinin sürətlə inkişafına daha da təkan verəcək. Azərbaycan Prezidentinin sözü ilə desək, Azərbaycanda sənayeləşmə sürətlə inkişaf edir. Sənaye sahələrinin inkişafı isə güclü Azərbaycan deməkdir. Ulu Öndərimiz "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir", kəlamı bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlarla reallığa çevrilib.

Güclü iqtisadiyyat əhalinin rifahı, ölkənin sabitliyi, ordunun gücü, dövlətin təhlükəsizliyidir. Məhz iqtisadi gücümüzə söykənərək Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində torpaqlarımız düşmən tapdağından azad edildi. Hazırda iqtisadi gücümüz ilə doğma torpaqlarımıza həyat yenidən qayıdır. Ölkə başçısı dəfələrlə "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır. Biz bu istiqaməti seçmişik və bu istiqamət bizə uğurlar gətirir", - deyə bildirib.

Hər bir sahibkar ölkəmizin sosial-iqtisadi inkişafında, istehsal potensialını artırmaq üçün öz öhdəsinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirməlidir. Azərbaycanda dövlət tərəfindən sahibkarlar üçün hər cür şərait yaradılıb, bütün lazımi dəstək göstərilir. Şübhəsiz dövlət və özəl sektorun birgə fəaliyyəti ölkənin sosial-iqtisadi inkişafı üçün qarşıya çıxan maneə və çətinliklərin həlli istiqamətində həyata keçirilən tədbirlər öz töhfəsini verəcək.

Bu səbəbdən sahibkarlar dövlət tərəfindən yaradılan portal (https://economicreforms.gov.az/) vasitəsilə maneə və çətinlikləri qeyd etməklə öz təkliflərini verməlidirlər.

# "AzerGold" QSC-nin fəaliyyətinin 9-cu ili tamam oldu













"AzerGold" QSC-nin fəaliyyətə başlamasının 9-cu ili tamam olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 fevral 2015-ci il tarixli Sərəncamına uyğun olaraq təsis edilən "AzerGold" QSC 5 iyul 2016-cı il tarixində dövlət qeydiyyatına alınaraq, fəaliyyətə başlayıb.

Artıq 9 ildir Azərbaycanın yeraltı sərvətlərinin səmərəli və dayanıqlı idarə olunması istiqamətində fəaliyyət göstərən Səhmdar Cəmiyyəti əlvan və qara metal filizi yataqlarının kəşfi, tədqiqi, qiymətli metalların hasilatı, yerli və beynəlxalq bazarlarda satışı ilə milli iqtisadiyyata, sosial-iqtisadi inkişafa davamlı töhfələr verməkdədir.

Qeyri-neft sektorunu təmsil edən aparıcı dövlət şirkətlərindən biri olan "AzerGold" QSC ötən dövrdə yerli və xarici bazarlarda 523 min unsiya qızıl və 989 min unsiya gümüşün satışını həyata keçirərək, ölkə iqtisadiyyatına 1 milyard 690 milyon manatdan çox vəsait cəlb edib. Bu məbləğin 1 milyard 592 milyon manatı ixrac, 98 milyon manatı isə yerli satışlardan əldə olunub. Dövlət büdcəsinə 216 milyon 433 min manat vergi, 34 milyon 845 min manat isə sosial ödəniş həyata keçirilib.

Ölkəmizin ən tələbatlı işəgötürənlərindən biri olan Səhmdar Cəmiyyəti ötən 9 il ərzində birbaşa və dolayı yolla 2351 nəfəri daimi işlə təmin edərək məşğulluğun artırılmasına da mühüm töhfə verib. Hazırda şirkət və törəmə cəmiyyətlərində – "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC-də 1088 nəfər, uzunmüddətli podratçılarda isə 1263 nəfər çalışır. İş yerlərində təhlükəsiz və layiqli əmək şəraitinin təmin edilməsi nəticəsində QSC və onun törəmə cəmiyyətlərində xəsarətsiz iş saatlarının ümumi sayı 7.6 milyonu ötüb.

QSC əlvan və qara metal yataqlarının kəşfi və tədqiqi sahəsində ən müasir və innovativ texnologiyalardan, o cümlədən hiperspektral və aeroelektromaqnetik tədqiqat üsullarından istifadə etməklə, milli dağ-mədən sənayesinin elmi-texnoloji inkişafına və resurs potensialının dəqiq qiymətləndirilməsinə mühüm töhfə verir.

Bununla yanaşı, Səhmdar Cəmiyyəti "Made in Azerbaijan" brendi altında qızıl və gümüş sikkə, eləcə də qızıl külçə məhsullarını daxili pərakəndə bazarda uğurla realizə etməkdədir. Müasir istehsal həlləri, o cümlədən «Smartminting» texnologiyası ilə hazırlanmış qiymətli məhsullar milli-mədəni dəyərlərimizin təbliğinə töhfə verir, həmçinin yüksək likvidliyə malik etibarlı investisiya aləti kimi çıxış edir.

Fəaliyyətini ekoloji norma və tələblər, sosial məsuliyyətlilik prinsipi əsasında təşkil edən "AzerGold" QSC-nin 9 illik fəaliyyəti onun dayanıqlı inkişaf modelini, qeyri-neft sektorunun şaxələndirilməsindəki rolunu və milli iqtisadiyyata verdiyi töhfəni aydın şəkildə nümayiş etdirir. Dövlət şirkəti bundan sonra da ölkənin mədən sənayesinin və sosial-iqtisadi rifahının inkişafına töhfə verməyə davam edəcək.

# "AzerGold" QSC-nin daha bir sosial layihəsi uğurla icra edilib



"AzerGold" QSC-nin təşkilatçılığı ilə həyata keçirilən "Şəhid və müharibədə yaralananların ailə üzvlərinin iqtisadi inkişafına dəstək" layihəsi çərçivəsində qənnadçı-şirniyyatçı peşəsi üzrə 2 aylıq intensiv təlimlər başa çatıb.

İyunun 30-da peşə təlimi proqramını uğurla tamamlayan müdavimlərin Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "Qeyri-formal və informal təhsilin tanınması" serfitikatları ilə təltif olunması mərasimi keçirilib.

Gəncə şəhərində təşkil olunmuş tədbirdə "AzerGold" QSC-nin İdarə Heyətinin üzvü - sədrin müavini, Korporativ Sosial Məsuliyyət Komitəsinin sədri Xəyyam Fərzəliyev, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini Vüqar Məmmədov, Göygöl Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Qocayev, İqtisadiyyat Nazirliyi, Yeni Azərbaycan Partiyası, "Honey Cake Studio" kulinariya incəsənət məktəbinin nümayəndələri və digər ictimaiyyət təmsilçiləri iştirak ediblər.

Tədbir peşə təlimi proqramında iştirak etmiş Gəncə şəhəri, Daşkəsən, Göygöl və Samux rayonlarından olan, həssas əhali qrupuna aid 15 nəfər evdar qadının hazırladığı qənnadi məmulatlarının dequstasiyası ilə başlayıb. Tədbir iştirakçıları təqdim olunan şirniyyatları böyük məmnuniyyətlə dadaraq, onların keyfiyyətini yüksək qiymətləndiriblər.

Tədbirin rəsmi hissəsində isə şəhid və müharibədə yaralananların ailə üzvlərinin hərtərəfli diqqət və qayğı ilə əhatə olunmasına xidmət edən layihənin dövlətimizin sözügedən istiqamətdə yürütdüyü ardıcıl və düşünülmüş siyasətə əlavə töhfə vermək, həssas kateqoriyaya aid vətəndaşlarımızın sosial müdafiəsini gücləndirmək, onların iqtisadi müstəqilliyinin, sosial fəallığının artırılmasına dəstək olmaq məqsədi daşıdığı bildirilib. Peşə təlimi proqramında iştirak etmiş qadınların qənnadçı-şirniyyatçı peşəsi üzrə əmək fəaliyyətinə cəlb edilməsi istiqamətində layihənin digər tərəfdaşları tərəfindən müvafiq dəstək tədbirlərinin həyata keçirilməsinə başlanıldığı bildirilib.

Tədbirdə, həmçinin təlim proqramının yekunu olaraq Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "Qeyri-formal və informal təhsilin tanınması" imtahanında iştirak edib uğur qazanan müdavimlərə peşəkar fəaliyyətə imkan yaradan sertifikatlar təqdim olunub.

Qeyd edək ki, şəhid ailəsi üzvü və müharibə iştirakçıları "AzerGold" QSC-nin korporativ sosial məsuliyyət layihələri çərçivəsində əsas hədəf kateqoriyalarından biri olaraq müəyyən edilib və onların sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş layihələr həyata keçirilir. Bu layihələrə müxtəlif istiqamətlər üzrə təlimlər, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, maddi yardımlar, sağlamlıq aksiyaları, daimi işlə təminat və digər sosial proqramlar daxildir.

## Tibbdə PR

# KİV-lərlə əməkdaşlıqda düzgün iş strategiyası: Müasir dövrün PR yanaşması

*(əvvəli ötən sayımızda)*

**Press-relizlər və xəbər hazırlığı: Nə və necə?**

Press-relizlər təşkilatın mediaya təqdim etdiyi rəsmi xəbərlərdir. Onların strukturu sadə, aydın və jurnalist standartlarına uyğun olmalıdır: Kim? Nə? Harada? Nə zaman? Niyə? Necə? suallarına cavab verməlidir. Başlıq diqqətçəkici, ilk abzas isə ən vacib informasiyanı əks etdirməlidir. Uzun və dolaşıq mətnlər jurnalistlərin marağını itirə bilər.

**Krizis situasiyalarında media ilə işləmək**

Gözlənilməz hadisələr və ya neqativ xəbərlər zamanı media ilə əlaqələrin peşəkar idarə olunması xüsusi əhəmiyyət daşıyır. Böhran kommunikasiyası planının mövcudluğu və dərhal reaksiya verə biləcək təlim keçmiş komandanın olması, qurumun ictimai etibarını qorumaqda həlledici rol oynayır.

KİV-lə böhran zamanı işləyərkən əsas prinsiplər bunlardır:
- Sakit və peşəkar davranış;
- Təqdim edilən informasiyanın dəqiqliyi;
- Medianın suallarını cavabsız qoymamaq;
- Şəffaflıq və məsuliyyət nümayiş etdirmək.



*Dilarə Zamanova,
Mərkəzi Gömrük Hospitalının
PR mütəxəssisi*

KİV-lə əməkdaşlıqda düzgün iş strategiyası hər bir təşkilatın ictimai rəy qarşısında nüfuzunu qoruması, şəffaflıq nümayiş etdirməsi və effektiv informasiya siyasəti aparması baxımından vacibdir. Bu yanaşma yalnız uğurlu kommunikasiya qurmağa deyil, həm də ictimaiyyətlə uzunmüddətli etimad və əlaqələr formalaşdırmağa imkan verir.

Kütləvi informasiya vasitələri ilə əməkdaşlıqda düzgün və məqsədyönlü iş strategiyası qurmaq hər bir təşkilat üçün ictimai rəy qarşısında nüfuzun qorunması və möhkəmləndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Belə bir strategiya vasitəsilə təşkilat öz mesajlarını daha dəqiq və anlaşılır şəkildə təqdim edə bilir, yanlış anlaşılmaların qarşısını alır və ictimaiyyətin suallarına operativ cavab verə bilir. Nəticədə, bu yanaşma təşkilatın imicinin güclənməsinə, etibarının artmasına və sosial məsuliyyətinin daha geniş şəkildə qəbul olunmasına şərait yaradır.

Bundan əlavə, media ilə davamlı, sistemli və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq yalnız qısa müddətli kommunikasiya uğuru ilə nəticələnmir, həm də ictimaiyyətlə uzunmüddətli və davamlı etimad əlaqələrinin qurulmasına zəmin yaradır. Bu etimad isə hər hansı bir böhran vəziyyətində təşkilatın daha möhkəm dayana bilməsi, cəmiyyətdə müsbət reputasiyasını qoruması və gələcəkdə daha geniş dəstək alması üçün vacibdir. Bu səbəbdən media ilə əməkdaşlıqda məqsədyönlü və planlı yanaşma təşkilatın uzunmüddətli uğurunun əsas açarlarından biridir.

# "Yaşıl dünya" anlayışları" adlı layihə icra olunmağa başlamışdır

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Gənclik və maarifçilik" İctimai Birliyi tərəfindən reallaşdırılan "Yaşıl dünya" anlayışları" adlı layihənin icrasına başlanmışdır.

Bildiyimiz kimi, 2024-cü ildə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Bakı şəhərində böyük uğurla baş tutmuşdur və burada çox mühüm qərarlar qəbul edilmişdir. COP29-un əsas istiqamətlərindən biri də "yaşıl dünya" problemləri olmuşdur.

Hazırkı layihənin də əsas məqsədi "Yaşıl dünya" ilə bağlı dilimizə və elmi terminologiyaya daxil olan bütün anlayışların sadə dildə izahından,



hər bir sahədə Azərbaycanda görülmüş və görülən işlərin təsvirini özündə əks etdirən 30-50 səhifəlik yığcam kitabçanın hazırlanması və yayılması ilə gənc nəsildə ekoloji fikrin, "yaşıl şüur"un formalaşdırılmasına, ekoloji təmiz dəyərlər sisteminin ictimai şüura təsirinə real dəstək göstərilməsindən ibarətdir.

Layihə gənclər və uşaqlarda "yaşıl dünya" təsəvvürlərinin, "yaşıl əxlaq"i dəyərlərin formalaşdırılmasına, biomüxtəliflik, "yaşıl ekologiya" kimi sahələrdə savadlılığın artırılmasına dəstək olacaqdır.

# "AzerGold" QSC-nin KSM Komitəsi Daşkəsən sakinləri ilə növbəti dəfə görüş keçirib






"AzerGold" QSC-nin Korporativ Sosial Məsuliyyət (KSM) Komitəsinin Daşkəsən rayonunun sakinləri ilə növbəti görüşü keçirilib.

Görüşdə "AzerGold" QSC-nin İdarə Heyətinin üzvü – sədr müavini, QSC-nin KSM Komitəsinin sədri Xəyyam Fərzəliyev, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısının müavini Vüqar Məmmədov və komitə üzvləri iştirak ediblər.

Ənənəvi xarakter daşıyan görüşün məqsədi yerli icmalarla işin gücləndirilməsi, görülən işlərlə bağlı onların məlumatlandırılması, sosial ehtiyacların öyrənilməsi, rəy və təkliflərin dinlənilməsidir.

Görüşdə 2025-ci ilin birinci yarısında "AzerGold" QSC tərəfindən icra edilən, cari ilin ikinci yarısında planlaşdırılan sosial və ekoloji layihələr haqqında məlumat verilib.

Qeyd olunub ki, hesabat dövründə Səhmdar Cəmiyyəti tərəfindən ətraf mühitin mühafizəsi, məşğulluq, kənd təsərrüfatı, şəhid və müharibədə yaralananların ailə üzvləri üçün peşə hazırlığı, uşaqların fərdi inkişafı, mədəniyyət, mədəni irsin qorunması sahəsində sosial layihələr icra edilib. Bu layihələrin həyata keçirilməsində Daşkəsən Rayon İcra Hakimiyyətinin dəstəyi xüsusi vurğulanıb. Qarşıdakı dövrdə isə elm, təhsil, səhiyyə, idman, qadınların məşğulluğu, sosial infrastruktur və digər sahələrdə yeni təşəbbüslərin icrasının planlaşdırıldığı diqqətə çatdırılıb.

Görüş zamanı vətəndaşların müraciətləri dinlənilib, yeni təkliflər müzakirə edilib. Görüşdə, həmçinin vətəndaşların qaldırdıqları məsələlər araşdırılması və mövcud qanunvericilik çərçivəsində həll edilməsi üçün qeydiyyata alınıb.

Qeyd edək ki, "AzerGold" QSC tərəfindən hədəf qruplarına yönəlmiş təşəbbüs və layihələrin icrası çərçivəsində kənd sakinləri ilə ənənəvi görüşlərin təşkili davam etdiriləcək.

# Çarəsizə çarə, ümidsizə ümid

***Canımızı çox sevirik, lakin ən çətin və ümidsiz vəziyyətlərdə onlara üz tuturuq. Ağrıyanda, həyatla ölüm arasında qalanda onlara pənah aparır və etibar edirik. Ağxalatlı peşə sahibləri gecə-gündüz xəstənin çarpayısının yanından ayaq çəkmədən bilik, bacarıq, zəhmət və təcrübələri hesabına onu həyata qaytarmağa çalışırlar. Xəstə ayağa qalxıb gözünə işıq, üzünə təbəssüm gələndə bəlkə də ən çox sevinən elə ona bu həyatı bəxş edən həkim olur. Görünür, bu müqəddəs peşə sahibləri ona görə çox sevilir və onlara ehtiramla yanaşırlar. Hippokrat andı içən xeyirxah peşə sahibləri ən ağır və çıxılmaz vəziyyətlərdə ürəklərdə ümid işığı yandırmaq, şəfasıza şəfa, çarəsizə çarə vermək üçün hər cür zəhmətə qatlaşırlar.***

Yüksəkixtisaslı cərrah, Mərkəzi Gömrük Hospitalının rəisi, tibb xidməti polkovniki Bəxtiyar Musayev də həyatını bu nəcib və müqəddəs peşəyə həsr edib. O, uzun illərdir ki, bütün növ açıq və laparoskopik cərrahi əməliyyatlarını yüksək peşəkarlıqla yerinə yetirərək xəstələrə şəfa verir, onlara sağlamlıq bəxş edir. Onun həkim kimi ən üstün keyfiyyətlərindən biri hər xəstəyə qayğı ilə yanaşması, onları öz doğması və əzizi kimi qəbul etməsidir. Tibbdə həkimlə xəstənin ünsiyyəti, onunla davranışı və inamı ən mühüm keyfiyyətlərdən biri sayılır. Müasir tibb elmi də sübut edir ki, bəzən mükəmməl tibbi biliklərlə bərabər, xəstəyə qarşı göstərilən insani münasibət, ona olan sevgi müalicənin başlıca şərtlərindən sayılır. Bəxtiyar həkimdə olan məhz bu keyfiyyətlər onu xəstələrə daha çox sevdirir. "Həkimlik elminin qanunları" əsərinin müəllifi olan İbn-Sina deyirdi: ***"Həkim şahin gözünə, ilan müdrikliyinə və aslan ürəyinə malik olmalıdır"***.

Bəxtiyar həkim bu keyfiyyətləri özünün elmi bilikləri ilə birləşdirərək bu gün ən tanınmış mütəxəssislərdən birinə çevrilib. O, özünün bilik və bacarığı ilə yalnız ölkəmizdə deyil, onun hüdudlarından kənarda da tanınır, peşəkarlığı və elmi ilə qəbul edilir. Həm nəzəri elmi, həm də praktik tibbi uğurları məşğul olduğu sahədə ona şöhrət və hörmət qazandırıb.

Bəxtiyar həkim bir alim kimi ölkəmizdə tibb elminin inkişafına da böyük töhffələr verib. O, 50-dən çox elmi məqalənin, 1 ixtiranın, 3 səmərələşdirici təklifin və 4 metodik tövsiyənin müəllifidir. Bəxtiyar Musayev ölkəmizdə endoskopik əməliyyatları icra edən ilk həkimlərdən biri kimi Azərbaycan səhiyyəsində xeyli uğurlara imza atıb. Xüsusilə qeyd etməyə dəyər ki, yüksəkixtisaslı ümumi cərrah Bəxtiyar Musayev 1984-cü ildə ölkəmizdə perkutan endobiliar əməliyyatının ilk icraçısı olub. Onun istedadı və humanist keyfiyyətləri peşəkar cərrah kimi tanınmasında xüsusi bir dəyər sayıla bilər.

Bəxtiyar həkim həm də uğurlu təşkilatçıdır. Mərkəzi Gömrük Hospitalının rəisi, tibb xidməti polkovniki Bəxtiyar Musayev 3 ilə yaxındır ki, Mərkəzi Gömrük Hospitalının rəisi – Baş həkimi vəzifəsini icra edir. Bu müddət ərzində hospital təkcə ölkəmizin deyil, regionun aparıcı tibb müəssisələrindən birinə çevrilib. Hazırda Gömrük Hospitalı ən müasir tibbi avadanlıqları, dərman vasitələri, innovativ laboratoriya avadanlıqları, tibbdə informasiya texnologiyaları və s. ilə təmin edilib.

Qeyd etmək lazımdır ki, Bəxtiyar Musayevin rəhbərlik təcrübəsi yalnız Mərkəzi Gömrük Hospitalı ilə məhdudlaşmır. O, uzun illər ərzində Azərbaycanın bir sıra nüfuzlu özəl tibb müəssisələrində baş həkim kimi fəaliyyət göstərib,



hər zaman peşəkar idarəçilik bacarığı, strateji baxışı və tibbi xidmətin keyfiyyəti ilə seçilib. Onun rəhbərliyi altında tətbiq olunan yenilikçi yanaşmalar və inkişaf strategiyaları çalışdığı bütün müəssisələrin uğur qazanmasına və yüksək reputasiya qazanmasına səbəb olub.

Həkim peşəkarlığı, təşkilatçılıq bacarığı və nəcib insani keyfiyyətləri ilə rəğbət qazanan tibb elmləri doktoru Bəxtiyar Musayev Hippokrat andına sadiq bir həkim kimi xəstələrin keşiyindədir. Onun həm həkim, həm səhiyyə təşkilatçısı kimi fəaliyyəti gənc tibbi kadrlar üçün əsl örnəkdir.

Xəstələr həmişə çarəni həkim əllərində axtarırlar. Ağxalatlı müqəddəs peşə sahibləri onları həyata qaytarmaq, ağrılarına aradan qaldırmaq, ömürlərinə ömür calamaq, ən çarəsiz vəziyyətlərdə də qəlblərində ümid işığı yandırmaq, necə deyərlər, şəfasıza şəfa, çarəsizə çarə vermək üçün hər cür zəhmətə qatlaşırlar. Bəxtiyar həkim də belə xoş məramla yaşadığı üçün ona üz tutan, pənah gətirən xəstələrin, rəhbərlik etdiyi kollektivin sevmlisina çevrilib.

**Dilarə Zamanova,
Mərkəzi Gömrük Hospitalının
PR mütəxəssisi**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə «Xəzər» ASC-nin sədri, iqtisad elmləri doktoru
**QÜDRƏT KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə Bakı Dövlət Universitetinin
İqtisadiyyat kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Eldar Quliyev Bakı Dövlət Universitetinin
İqtisadiyyat kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Bəyalı Ataşov Bakı Dövlət Universitetinin
İqtisadiyyat kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Eldar İbrahimov Bakı Dövlət Universitetinin
İqtisadiyyat kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor İbad Abbasov Bakı Dövlət Universitetinin
İqtisadiyyat kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Rəsul Balayev Bakı Dövlət Universitetinin
İqtisadiyyat kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Bakı Dövlət Universitetinin
İqtisadiyyat kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universiteti nəzdində Müdafiə Şurasının üzvləri:
Aygün Quliyeva, Səbinə Vəliyeva, Elnurə Məmmədova, Elşən İbrahimov, Möhübbət Hüseynov, Nizami Qafarov,
Tahir Şükürov, Anar Əzizov, Məhərrəm Hüseynov, Fikrət Quliyev, İslam İbrahimov, Arzu Həsənov
Bakı Dövlət Universitetinin İqtisadiyyat kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin İqtisadiyyat kafedrasının dosenti Mehriban Yadulla İqtisadiyyat
kafedrasının professoru Pəri Həsənovaya əzizi
**ZAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500